

# "KOROĞLU" OPERASINDA QƏHRƏMANLIQ MOTİVLƏRİ

**Bir çox dastanlar kimi, "Koroğlu" dastanı da çox qiymətli və dəyərli xalq dastanlarından biridir. Geniş coğrafi ərazidə tanınan və demək olar ki, əksər insanlar tərəfindən mənimsənilən bu dastan hər bir millətin özünəməxsus varlığını, kədərini, sevincini, coşqunluğunu və bununla bərabər duyğu və düşüncələrini özündə birləşdirən ədəbi abidədir.**

**Dastanın əsas süjet xətti müsbət xüsusiyyətlərə malik olan əsas qəhrəmanların həyatı ilə bağlı hadisələri, onun qəhrəmanlığını, mərdliyini göstərməkdədir. Dastanın mövzusu dahi Üzeyir Hacıbəylinin diqqətini cəlb etmiş və o, dörd illik gərgin əməyi nəticəsində 1937-ci ildə "Koroğlu" operasını tamamlamışdır. Operanın libretto müəllifi M.S.Ordubadidir.**

Opera beş pərdədən ibarətdir. "Koroğlu" operasında bəstəkar Azərbaycan xalq musiqisinin bütün janrlarına - mahnı, rəqs, muğam, aşıq yaradıcılığına müraciət edərək, özünəməxsus milli üslubda opera yaratmışdır. Dərin ideya-bədii məzmuna, yüksək dramaturji keyfiyyətlərə malik bu möhtəşəm qəhrəmani epik operada xalq obrazı xüsusi məna daşıyır və bu obrazın açıqlanmasında xorların mühüm əhəmiyyəti vardır.

Qeyd etmək lazımdır ki, operada xorlar sadəcə olaraq xalq kütlələrinin əzab və mübarizəsini deyil, eyni zamanda düşmən qüvvələrini də təmsil edir. Bununla belə, epik xüsusiyyətlərin açıqlanmasında geniş xalq səhnələri mühüm əhəmiyyət kəsb edir. Dramaturji inkişafın əsas hərəkətverici qüvvəsi məhz xalq səhnələridir. I pərdədə hadisələrin mərkəzində olan xalq obrazını təsvir etmək üçün bəstəkar müxtəlif xarakterli xorlardan istifadə etmişdir. Ayrı-ayrı surətlərin açıqlanması çox zaman bəstəkar xorların fonunda verir.

Operanın əsas ideya məzmununu əks etdirən uvertüradan sonra "Bu gözəl təbiət" adlı xor təqdim olunur. Burada köməksiz, əzab çəkən xalqın xasiyyətnaməsi verilir. Xor geniş həcmi ilə I pərdənin böyük bir səhnəsini təşkil edir. Xor səhnələrində kuplet-variant quruluşla bərabər üçhissəli quruluş özünü biruzə verir. Orkestrin girişi ilə başlanan səhnə "Çahargah" ladında həyəcanlı xarakterdədir. Çahargah ladında verilən xorun partiyası xalqın kədərini, ağır vəziyyətini göstərir.

Yoxsul kəndlilər olan Nadir və Vəlinin gətirdiyi acı xəbər xorun inkişafında yeni bölməni əmələ gətirir. Bu hadisələrin dramatikliyini daha da artırmaq üçün bəstəkar "Çahargah" ladından "Bayatı-Şiraz"a yönəlir. Bu mövzudan sonra "Rast" ladında bu səhnənin orta hissəsi başlayır. Xor Nadir və Vəlinin birgə oxuduqları çıxışla əvəz olunur. Onlar kəndlilərin Həsən xanın adamları tərəfindən qarət olunmasından xəbər verirlər. Lakin burada da xor tamamilə kənarlaşmır və xorun ifasında kiçik bir mövzu öz yerini alır.

Nadirin solo partiyası və Vəlinin ona qoşulması xalq mahnı üslubundadır. Bu bölmədə də lad modulyasiyalarına geniş yer verilmişdir. Ümumiyyətlə, bu səhnənin dramaturji inkişafında muğama məxsus qanunauyğunluq xüsusi əhəmiyyət kəsb edir. Burada tədricən yüksəlmə aydın şəkildə özünü biruzə verir. Mövzunun inkişafında variasiyalılıq və sekvensiyalılıq üstünlük təşkil edir. Müxtəlif ladların ardıcıllığı obrazların özünəməxsus cizgilərinin əks olunmasında mühüm rol oynayır. Bu səhnədə xalqın qəm-qüssəsi ilə bərabər, onun mübarizəyə qadir olması da təsvir olunur.

Operada digər bir mübarizə xarakterli xor "Gərək bu gün edək qiyam" adlanır. Bu xor səhnəsi Nigarın intonasiyaları üzərində qurulmuşdur. Mövzu yuxarıya doğru hərəkət edir və gərgin səslənən lad pərdələrinə dayaqlanır. Həyəcanlı musiqi "Humayun" ladında verilir. Melodik inkişafda modulyasiyalı sekvensiya üsulu diqqəti cəlb edir.

Bunun ardınca Rövşənin "Ax, intiqam" sözləri ilə silahlı mübarizəyə çağırış reçitativ xarakterdə səslənir və xromatik gedişdən ibarətdir.

Xorun fakturasında müxtəlif səslər arasında unison və akkord ardıcıllığının yaranmasına səbəb olur. Dördsəsli xorda partiyalar qoşalaşaraq iki melodik xətdə birləşirlər. Bu intonasiya bütün əsər boyu bir neçə dəfə səslənərək dramaturji xətti daha da kəskinləşdirir. Rövşənin "Təngə gəldik, yox tavan" başlığı ilə verilmiş ariozasında və həmçinin II pərdədə səslənən Nigarın "Gərək kəsək o əlləri" adlı reçitativində də bu intonasiyalar səslənir.

Operada mühüm rol oynayan xor nömrələrdən biri də "Yazıq Alı gör bədbəxt oldu" adlanır. Təqdim olunan səhnə vasitəsilə sanki hadisələrin inkişafı daxil edilir yandırılır və xalq obrazına yeni cizgilər daxil edilir. Bu xor bir növ lirik səpkidə verilir. Orkestr müşayiətində ağır ritmik hərəkət mövzuya matəm xarakteri verir. Tonika orqan punktu üzərində ostinatolu ifa mövzunu daha da bədbinləşdirir.

Xor səhnəsinin ardınca qəhrəmani xarakterdə Rövşənin ariozası səslənir. "Təngə gəldik, yox tavan" sözləri ilə verilmiş ariozada sanki xalqın şikayəti Rövşənin dilindən əks olunur.

Operada digər bir kütləvi səhnə I pərdənin sonunda təqdim olunur. Orkestrin müşayiətində səslənən triol fiqurasiyalar operanın uvertürasının intonasiyaları üzərində qurulub. Harmonik faktura da musiqiyə qətiyyətli xarakter verir.

Xanın sarayını təsvir edən ikinci pərdədən sonra təqdim olunan III pərdə yenə də xalqın obrazını təsvir edir. Burada xalqın azadlıq uğrunda apardıqları mübarizə öz əksini tapır.

Qeyd etmək lazımdır ki, operada xalq obrazının inkişafının əks olunmasında III pərdə xüsusi əhəmiyyət kəsb edir. Məhz bu pərdədə xalq obrazı ilə bağlı möhtəşəm xor səhnələri təqdim olunur.

III pərdədə simfonik müqəddimə ilə birlikdə böyük səhnə olan "Çənlibel" xoru yer alır. Orkestrin müşayiətində verilən müqəddimə "Şur" ladına əsaslanır. Burada "Şur" ladının müxtəlif pillələrinə istinad olunur. Müqəddimədə xalqın leytmotivi xüsusi əhəmiyyət daşıyır. Bu motiv mübarizəyə çağırış kimi səslənir. Qeyd etmək lazımdır ki, döyüşkən ruhlu səhnələrdə istifadə olunan kvarta intonasiyası burada önəmli yer tutur. Müqəddimədə çoxsəsli musiqi daxilində aşıq musiqisinə xas olan kvarta-kvinta səslənmələri, aşağı registrə doğru hərəkət və plaqal dönmələr musiqiyə xüsusi rəng qatır.

Bəstəkar eyni zamanda bu səhnədə xalqın qəhrəmani xarakterini, onun daxili aləmini əks etdirmək üçün polifonik inkişaf üsullarına da yer verir. Məhz "Çənlibel" xorunun ilk bölməsi də imitasiya şəklində inkişaf edir. Aşağı registrdə kişi xoru ilə keçən fuqato çox kəskin formada səslənir. Xor daxilində üsyan etmiş xalqın leytmotivi də eşidilir. Fuqato xalq musiqisinə xas olan variant dəyişikliyi üzərində qurulmuşdur.

Xorun yeni bölməsi "Rast" ladında başlayır. Bu, bayramsayağı, şən xarakterdə səslənir. Bütün bölmə boyu sabit tonika orqan punktu ilə verilir. Kulminasiya anında dördsəsli quruluş meydana gəlir. Burada hər iki bölmənin musiqi materialı təkrar olunur. Təkrar zamanı fuqato daha da dinamikləşir.

Xora "Cəngi" rəqsinin intonasiyaları daxil olunaraq bayram əhval-ruhiyyəsi alır. Bu böyük səhnə orkestr və xor səslərinin birləşməsi ilə tamamlanır.

III pərdədə qəhrəmani xarakter daşıyan digər bir xor səhnəsi "Hər kəs yoxsuldan" adlanır. Bu xor istismar olunan xalqın birlik ideyasını əks etdirir.

Xor Koroğlunun ariozasının davamı kimi verilir. Rast ladında təqdim olunan bu səhnə qəhrəmani xarakter daşıyır. Burada Nigarın partiyasının intonasiyaları duyulur və punktir ritm üzərində ostinatolu səslənmə ilə seksta intervalları üzərində inkişaf edir. Xorda milli kolorit yaradan cəhətlərdən biri də bas səsində tonika orqan punktunun saxlanılmasıdır.

Kulminasiyada "Çahargah" ladında sanki qələbə-

yə çağırış səslənir. Burada lad modulyasiyaları özünü büruzə verir. Çahargah ladının son kadensiyasından sonra melodiya yenə ilkin lad olan "Rast"ın mayəsinə qayıdılır və Koroğlunun solosunun intonasiyaları eşidilir. Beləliklə, bəstəkarın təqdim olunan xor səhnəsində lad keçidlərindən məharətlə istifadə etdiyi şəkildə özünü göstərir.

Digər xor replika xarakteri daşıyan "Rövşən, sən, əbəs yerə eylədin bunu qəbul" adlanır və bu, xalqın mehtər adı ilə Çənlibelə gələn Həmzə bəydən (Keçəl Həmzədən) ehtiyat etməsini bildirir.

Operanın III pərdəsi parlaq səhnələrdən biri ilə tamamlanır. Bu səhnələrdən biri "Əhdnamə" xoru ilə bağlıdır. Koroğlunun mövzusunun intonasiyaları burada ciddi xarakter alır. Burada unison səslənmə mühüm rol oynayır. Punktir ritmli musiqi xalqın qəhrəmani xarakterini əks etdirir. III pərdənin son xorları olan "Qırat oğurlandı", "Heyfa, heyfa" həm intonasiya, həm də dramaturji baxımdan hadisələrin gərgin düyün nöqtəsidir.

Digər pərdələrdə olduğu kimi, V pərdədə də əsas obrazlarla yanaşı kütləvi səhnələr mühüm rol oynayır. Sonuncu pərdə bütün əsərin musiqi tematizminə yekun vurur. Bu pərdə Nigar, Polad və Eyvazın edam səhnəsini təsvir edir. Bu səhnədə səslənən xor xalqın etiraz səsini əks etdirir.

Səhnənin ən gərgin anı olan "Olsa xana xain hər kəs" xorunda bir-birinə zidd qüvvələrin toqquşması təsvir edilir. Əsərin sonuncu tamamlayıcı xoru xalqın azadlığını, sevincini, Koroğlunun qəhrəmanlığını tərənnüm etdirir.

**Xorlar "Koroğlu" operasının epik janr mahiyyətini, demokratik xarakterini və dramaturji inkişafını müəyyən edən mühüm komponentdir. Məhz xorlar vasitəsilə bəstəkar xalq obrazını aparıcı qüvvə kimi ön plana çəkmişdir. Ü.Hacıbəyli həm müsbət xalq obrazının, həm də xanın əhatəsində olan yaltaq, ikiüzlü saray adamlarının musiqi səciyyəsində xorlardan geniş istifadə etmişdir. Həmin səhnələrdə xorlar müxtəlif şəkillərdə təsvir olunmuşdur. Bəstəkar eyni zamanda xorların janr müxtəlifliyini, həmçinin, onların melodik zənginliyini də müəyyən etmişdir.**

● **Həbibə MƏMMƏDOVA,**
***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı***

## Ədəbiyyat

1.Hacıbəyov Ü. "Koroğlu". Klavir. M., 1970.
2.Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. B. 1985.
3.Həsənova C. "Üzeyir Hacıbəyovun yaradıcılığında lad probleminə bir baxış". //"Musiqi dünyası" jurnalı. 3-4/25, B. 2005, s. 41-45.

## Резюме

В представленной Хабибой Мамедовой статье "Героико-историческая тематика в опере "Кероглу" ставится цель раскрытия героико-исторической темы в развитии произведения. В статье анализируются музыкальные примеры с ладо-интонационной точки зрения, а также рассматриваются их содержание и фактура.

## Summary

In the present Habiba Mamedova article "Heroic and historic themes in the opera "Koroghlu" aims to disclose the heroic and historic themes in the development of the work. The article analyzes the musical examples with tune-intonational point of view, and also examines the content and texture.

**Təqdim etdi:** Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrası.
**Elmi rəhbər:** fəlsəfə elmləri doktoru, professor G.Abdullazadə.